Şevardnadze: “Gürcüstan Azərbaycanın dəstəyini hiss edir”

Yazan
01.11.13 20:12 -



Gürcüstanın sabiq prezidenti Eduard Şevardnadze İlham Əliyevi prezident seçilməsi münasibətilə təbrik edib.

Məktubda xoş arzularını vurğulayan E. Şevardnadze bildirib:

“Əziz İlham Heydər oğlu,
Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm. Sizin bu inamlı qələbəniz çox sınaqlardan keçərək bu həlledici gündə bir daha düzgün seçim etmiş Azərbaycan xalqının müdrikliyinə sübutdur. Dəfələrlə qeyd etdiyim kimi, bizim hamımızın bəxtimiz gətirib ki, tarixin bu məsul dövründə Azərbaycanda hakimiyyət sükanının arxasında İlham Heydər oğlu Əliyev kimi istedadlı bir dövlət xadimi – zəmanəmizin görkəmli siyasi xadimi, mənim sədaqətli dostum və qardaşım Heydər Əlirza oğlu Əliyevin layiqli varisi dayanır. Sizin qeyri-adi qabiliyyətləriniz Prezident Heydər Əliyevin müdrik kursunu uğurla davam etdirməyinizə kömək etmişdir. Məhz Heydər Əliyevin sayəsində Gürcüstandan fərqli olaraq Azərbaycanda yeni sosial-iqtisadi sistemə keçidə nisbətən rəvan şəkildə, az itkilərlə nail olunmuşdur. Minnətdarlıq hissi ilə qeyd etməliyəm ki, biz Gürcüstanda problemlərin həlli istiqamətində mübarizədə qardaş Azərbaycan xalqının dəstəyini daim hiss edirik. Mənim təbriklərimə qızım Manana, oğlum Paata və onların ailələri də qoşulurlar, çünki Sizin qələbəniz bizim ümumi sevincimizdir”.